# Əməkdaşlıq üçün yeni perspektivlər var

## Prezidentin Rusiyaya səfəri münasibətlərin daha da inkişafına təkan verəcək

**Prezident İlham Əliyev aprelin 22-də Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə Moskvaya işgüzar səfər edib. Görüş çərçivəsində ölkə rəhbərləri bir sıra məsələləri müzakirə ediblər. Eyni zamanda Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüş baş tutub.**



Milli Məclisin deputatı Aydın Mirzəzadə "Azərbaycan" qəzetinə açıqlamasında Azərbaycan ilə Rusiyanın qonşu dövlətlər olduğunu və belə dövlətlərin münasibətlərinin yaxşı olmasının regionda, o cümlədən dünyada stabillik və əmin-amanlıq yaratdığını deyib.

Deputat bildirib ki, Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra qonşu dövlətlər, həmçinin Rusiya ilə yaxşı münasibətlərin yaradılmasının əsası qoyuldu: "Bu əlaqələr indi də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının Moskvaya səfəri, Rusiya Prezidenti ilə görüşü iki ölkə arasında əlaqələrin inkişaf etdiyini bir daha göstərdi. Bu səfər əsnasında maraq doğuran məsələlər üzrə əməkdaşlığın genişləndiyini gördük. Qeyd edək ki, Azərbaycan və Rusiya arasında ticari-iqtisadi dövriyyə 4 milyard dollara çatıb. Əməkdaşlıq üçün yeni perspektivlər də var, görüş zamanı bunlar da müzakirə edildi".

Deputat vurğulayıb ki, Ümummilli Liderin vaxtilə Rusiya və dünya üçün böyük əhəmiyyət daşıyan Baykal-Amur Magistralının inşasında böyük rolu olub. Bu, BAM-ın 50 illik yubileyi münasibətilə keçirilən görüşdə bir daha xatırlandı. Veteranlarla görüş zamanı Azərbaycanın dahi oğlunun SSRİ-nin ən nəhəng layihələrindən birinin həyata keçirilməsində xüsusi rolu qiymətləndirildi.

"Şimal-Cənub" dəhlizinin işə düşməsi üçün tərəflərin ciddi müzakirələr apardığını deyən deputat bildirib ki, bu layihə həm də yüz minlərlə yeni iş yerinin açılması deməkdir. "Həmçinin ticarətin güclənməsi tərəflərin əməkdaşlığının, mehriban qonşuluq münasibətlərinin daha da inkişafı deməkdir. Şübhəsiz ki, görüşdə dünyada gedən proseslər də müzakirə olunub. Azərbaycanın dünya gündəliyində olan məsələlərlə bağlı mövqeyi birmənalıdır. Problemlər həmişə diplomatik yolla, beynəlxalq hüquq əsasında, ölkələrin ərazi bütövlüyü və maraqların bir-birinə yaxınlaşdırılması yönündə həll olunmalıdır", - deyə o əlavə edib.

A.Mirzəzadə sonda qeyd edib ki, Prezident İlham Əliyevin Rusiyaya səfəri iki ölkə arasında yaxşı qonşuluq münasibətləri qurmağın çox vacib olduğunu göstərdi. Azərbaycan bu məsələdə növbəti nümunə nümayiş etdirdi.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 24 aprel, № 82.- S.5.